**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**

**ZAQATALA filialı**

**FAKÜLTƏ: İqtisadiyyat və menecment departamenti**

**BÖLMƏ: İqtisadiyyat və idarəetmə**

**İXTİSAS: Turizm işinin təşkili**

**Müdafiəyə buraxılır:**

**«____» «_____» 2025-ci il**

**Bölmə rəhbəri: ______________________**

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

**BURAXILIŞ İŞİ**

# MÖVZU: AZƏRBAYCANDA TURİZM SEKTORUNDA NƏQLİYYAT XİDMƏTİNİN İNKİŞAFİ

**QRUP:TT12-21**

**TƏLƏBƏ: ƏHMƏDLİ ƏLİ HƏBİB OĞLU**

**ELMİ RƏHBƏR: B.M ƏLİZADƏ NƏRMİN ƏSƏDULLAH QIZI**

**ZAQATALA-2025**

# MÜNDƏRİCAT

**GİRİŞ……………………………………………………………………3**

**FƏSİL I. TURİZMDƏ NƏQLİYYAT XİDMƏTLƏRİNİN TƏŞKİLİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI..................................................................5**

**1.1.Turizmdə nəqliyyat xidmətlərinin rolu............................................................5**

**1.2.Turizmdə nəqliyyat xidmətlərinin strukturu, növləri və əhəmiyyəti................9**

**FƏSİL II. AZƏRBAYCANDA TURİZMDƏ NƏQLİYYAT XİDMƏTLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN TƏHLİLİ..................................................13**

**2.1. Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin maddi-texniki bazası.......13**

**2.2 Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin mövcud vəziyyətinin təhlili.........................................................................................................19**

**FƏSİL III. AZƏRBAYCANDA TURİZMDƏ NƏQLİYYAT XİDMƏTLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ...........................................26**

**3.1. Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin inkişafında mövcud problemlər.................................................................................................26**

**3.2. Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin inkişafında beynəlxalq təcrübənin tətbiqi.......................................................................................33**

**NƏTİCƏ VƏ TƏKLİFLƏR..................................................................................36**

**ƏDƏBİYYAT SİYAHISI...................................................................................39**

**XÜLASƏ..............................................................................................................42**

# GİRİŞ

**Tədqiqatın aktuallığı.** Müasir dövrdə turizm sektorunun dinamik inkişafı, nəqliyyat xidmətlərinin keyfiyyəti və əlçatanlığı ilə sıx bağlıdır. Turizmin davamlı və regional inkişafı üçün dayanıqlı nəqliyyat infrastrukturunun qurulması əsas şərtlərdən biridir. Azərbaycan Respublikasında turizmin inkişafı dövlət prioriteti olaraq qəbul edilsə də, bəzi bölgələrdə nəqliyyat xidmətlərinin qeyri-bərabər inkişafı, qiymət və xidmət keyfiyyətində uyğunsuzluqlar, eləcə də turistlər üçün vahid sistemin olmaması bu sahədə tədqiqatların aktuallığını artırır.

**Tədqiqatın obyekti** . Azərbaycanda turizm fəaliyyəti çərçivəsində təqdim olunan nəqliyyat xidmətləridir. Bu xidmətlər turistlərin ölkə daxilində hərəkət imkanlarını və səyahət təcrübəsini birbaşa təsirləndirən əsas amillərdəndir. Nəqliyyat xidmətləri turizmin davamlı inkişafı, əlçatanlıq və regional bərabərlik baxımından strateji əhəmiyyətə malikdir. Tədqiqatda bu xidmətlərin keyfiyyəti, infrastruktur səviyyəsi və idarəetmə mexanizmləri araşdırılır

**Tədqiqatın predmeti.** Azərbaycanda turizm sektorunda təqdim olunan nəqliyyat xidmətlərinin təşkili və inkişaf səviyyəsidir. Bu sahədə xidmətlərin keyfiyyəti, əlçatanlıq dərəcəsi və turist məmnuniyyətinə təsiri əsas araşdırma istiqamətlərini təşkil edir. Predmet çərçivəsində müxtəlif nəqliyyat növlərinin (hava, dəmir yolu, avtomobil və dəniz) turizmə təsiri və rolu təhlil olunur. Eyni zamanda, bu xidmətlərin beynəlxalq təcrübə ilə müqayisəli qiymətləndirilməsi və inkişaf potensialı da araşdırılır.

**Tədqiqatın nəzəri-metodoloji əsası**. Deskriptiv və analitik metodlar-məlumatların təhlili və ümumiləşdirilməsi, empirik sorğu və reqressiya təhlili-respondentlər üzərində aparılmış sorğuların statistik qiymətləndirilməsi, GZİT təhlili-nəqliyyat xidmətlərinin güclü və zəif tərəflərinin, imkanlar və təhdidlərin qiymətləndirilməsi, beynəlxalq müqayisəli analiz və müxtəlif ölkələrin nəqliyyat modellərinin araşdırılmasını əhatə edir.

**Tədqiqatın informasiya bazası.** Bu tədqiqatda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair Strateji Yol Xəritəsi", İqtisadiyyat Nazirliyinin və Azərbaycan Hava Yollarının hesabatları, Yerli və xarici ədəbiyyat (Əsədov, Məmmədova, Dinu və s.), sorğu nəticələri və onların reqressiya analizi, e-dərsliklər, elektron bazalar və rəsmi dövlət sənədlərindən istifadə olunmuşdur.

**İşin strukturu və qısa məzmunu.** Buraxılış işi üç əsas fəsildən və altı alt paraqrafdan ibarət olub, həmçinin titul vərəqi, mündəricat, giriş hissəsi, nəticə və təkliflər, ədəbiyyat siyahısını əhatə edir.

# FƏSİL I. TURİZMDƏ NƏQLİYYAT XİDMƏTLƏRİNİN TƏŞKİLİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

## 1.1. Turizmdə nəqliyyat xidmətlərinin rolu

İqtisadiyyatın ən əsas qollarında biri olaraq bilinən turizm, günümüzün qloballaşan dünyasında ölkələr arası transsərhədlərin də aradan qalxması ilə birlikdə dövlət büdcəsi üçün də əhəmiyyətli gəlir mənbəyinə çevrilmişdir. Turistlərin səyahət edərkən rahat və təhlükəsiz şəkildə mənzil başına çatmaları turizm infrastrukturunun ayrılmaz hissəsi olan nəqliyyat xidmətlərinin keyfiyyəti ilə birbaşa bağlıdır. Nəqliyyat turizmin inkişafını stimullaşdıran əsas faktorlar arasında yer alır. Bu baxımdan, nəqliyyat turizmin ən mühüm tərkib hissəsidir və onun inkişafı üçün strateji yanaşmalar tələb olunur.

Turizmi nəqliyyatsız təsəvvür etmək mümkün deyildAir. Çünki turistin bir yerdə başqa yerə hərəkəti baş tutmazsa turizm baş verməz. Qədim dövrlərdə avtomobillərin olmadığı dövrdə, yolların səyahətə uyğunsuzluğu səbəbində yalnız atlarla hərəkət edən insanlar, ehtiyyac olmadıqca səyahət etmirdilər. Lakin, günümüzdə nəqliyyat xidmtələrinin yüksək inkişafı, rahatlıq və təhlükəsizliyi turizmin sürətli inkişafına gətirib çıxarmışdır. Nəqliyyat xidmətlərinin inkişafı turistlərin ixtisaslaşmasına səbəb olmuş, ilin müəyyən dövründə daimi müxtəlif əraziləri gəzən turistlər meydana çıxmışdır. Əlbəttə turistlərin səyahəti üçün nəqliyyat vasitələri müxtəlifdir, turistlərin maddi və sosial vəziyyətindən asılı olaraq bu dəyişir.

Nəqliyyat xidmətləri turizmin əsas hissəsi kimi istehsal prosesinin də vacib bir hissəsidir. Sərnişinlərin və yüklərin yerdəyişməsini təmin edən nəqliyyat xidmətləri ölkələr və rayonlar arasında əlaqələri təmin edir, istehsal və istehlakı sağlayır. Bununla da nəqliyyat xidmətlərinin inkişafının əmək bölgüsü ilə əlaqəsi ortaya çıxır. Yükün həcmi və ya daşınan insanların sayı iqtisadiyyatın hansı

səviyyədə olmasının göstəricisidir. Bu nəqliyyat xidmətləri şəbəkəsi olmadan heç bir sahə inkişaf edə bilməz.

Turizmin əsası olan yerdəyişmə, turizm prosesinin baş tutmasını təmin edir. Boş vaxtlarını necə dəyərləndirəcəyini düşünən turistlər vaxta qənaət üçün də düzgün nəqliyyat vasitəsinin seçimini edirlər. Özəlliklə 18-ci əsr sənaye inqilabından sonra inkişaf etməyə başlayan nəqliyyat vasitələri, turizmi gələcəkdə təsəvvür edilə bilməyəcək səviyyələrə çatdırdı. Dünya nəqliyyat sistemi ölkələrin müxtəlif zonalarına kütləvi və təhlükəsiz səyahət etmək imkanını təmin edən sistemdir. Ölkə turizm potensialına malik olması, nəqliyyat sistemi olmadan heç bir işə yaramır, bu səbəbdən ölkələr nəqliyyat sisteminin inkişaf etdirilməsi üçün böyük büdcələr ayırırlar.

Dünya turizmində nəqliyyatın ən əsas 3 rolu aşağıda öz əksini tapmışdır:

- ✓ Nəqliyyat xidmətinin artırılması birbaşa olaraq turist sayının artmasına və turizm potensialının yüksəlməsinə səbəb olur. Nəqliyyat turistlərin toplu şəkildə sürətlə daşınmasını sağlayır. Beləliklə turizmdə nəqliyyat infrastrukturu yaxşılaşdıqca turist axını artmağa başlayır. Böyük sərnişin təyyarələrinin, kruiz gəmilərinin, surət qatarlarının və iki mərtəbəli avtobusaların turizm sektoruna müsbət təsir edir.
- ✓ Nəqliyyat xidmətinin yüksəldilməsi sürətli, rahat və asan səyahət imkanı sağlayır, turistlərin gəzmək və görmək ehtiyaclarına uyğun cavab verir.
- ✓ Turistlər ölkəyə pul axını deməkdir. Nəqliyyat xidmətinin artırılması xarici valyutanın ölkəyə daxil olmasını sağlayır, yüksək turizm gəliri yaradır.

Turizm iqtisadiyyatın digər sahələrində bir sıra cəhətlərinə görə fərqlənir.Turizm iqtisadi olaraq bir növ istehlak prosesidir. Turist öz ölkəsində qazandığı gəliri, turist olaraq getdiyi ölkədə istehlak qarşısında xərcləyir. Bu da iqtisadi olaraq böyük əhəmiyyət kəsb edir. Nəqliyyat şəbəkəsinin genişlənməsi turizmin inkişafının əsasını təşkil edir.

Turizm və nəqliyyat arasında qarşılıqlı əlaqə çoxşaxəli olub, hər iki sahənin inkişafında mühüm rol oynayır. Nəqliyyat turizmin infrastrukturunun əsas sütunlarından biri hesab edilir və onun vasitəsilə turistlər müxtəlif marşrutlar üzrə hərəkət edə bilirlər. Turistlərin səyahət planlarını qurması, gedəcəkləri yerləri seçməsi və ümumi təcrübələrinin keyfiyyəti nəqliyyat xidmətlərinin səviyyəsindən asılıdır.

Nəqliyyat xidmətləri turizm sektorunun inkişafında mühüm dərəcədə rol oynayır. Sərnişinlərin turistik məqsədlər üçün bir yerdən başqa yerə rahat və təhlükəsiz getməsi üçün nəqliyyat infrastrukturu yaradılır, bu onları səyahət təcrübəsinə təsir edir ( Məhərrəmova, 2019).

Nəqliyyat infrastrukturu inkişaf etmiş bölgələr turistlər üçün daha cəlbedicidir. Məsələn, sürətli dəmir yolları, hava limanları və yaxşı yollar turistlərin rahat hərəkətini təmin edir. Nəqliyyat turizm üçün bir körpü rolunu oynayır. Nəqliyyat olmadan turizm sektoru mövcud ola bilməz. Əgər bir bölgəyə çatmaq çətindirsə, ora olan turist axını da az olacaqdır.

Turizmdə mövcudluq hər hansı bir bölgənin fiziki olaraq varlığı, yəni turizm baxımından cazibəli olmasıdır (məsələn, dağlar, sahillər, tarixi abidələr). Əlçatanlıq isə həmin bölgəyə asan, rahat, təhlükəsiz və sərfəli şəkildə çatmağın mümkün olmasıdır. Azərbaycanın bir çox regionu turizm baxımından böyük potensiala malik olsa da, yolların vəziyyəti və ictimai nəqliyyat imkanları bu potensialın reallaşmasına mühüm təsir göstərir. Bu kontekstdə, nəqliyyat növlərinin və onların turizmə təsirinin nəzərdən keçirilməsi əhəmiyyətlidir. Belə ki, hava nəqliyyatı uzaq məsafələri sürətlə qət etməyə imkan verir, xüsusilə beynəlxalq turizmin inkişafı baxımından əhəmiyyətlidir. Hava limanlarının sayı və keyfiyyəti, ölkənin turizm imkanlarını artırmağa müsbət təsir göstərə bilər. Digər tərəfdən, dəmir yolu nəqliyyatı, rahat, təhlükəsiz və daha sərfəli səyahət təmin etməklə, xüsusilə daxili turizmin inkişafına töhfə verir. Məsələn, Avropa və digər

inkişaf etmiş ölkələrdə dəmir yolu nəqliyyatı, turizm marşrutlarının əsas tərkib hissəsini təşkil edir. Avtomobil nəqliyyatı turizm sektoruda ilk pilləni tutur. Belə ki, şəxsi avtomobillə və ya avtobuslarla səyahət imkanı verir eyni zamanda, yolların vəziyyəti və yanacaq qiymətləri turistin qərarına təsir göstərir (Dinu Ana-Maria, 2018).

Bunlardan əlavə, dəniz və çay nəqliyyatı kruiz turizminin əsas hissəsidir. Bu nəqliyyat dəniz sahilləri olan ölkələr üçün əhəmiyyətlidir. Bu baxımdan Azərbaycanda Xəzər dənizi potensial baxımından böyük imkanlar yaradır.

Rahat və etibarlı nəqliyyat xidmətləri turistlərin məmnuniyyətini artırır və onların təkrar səfərlər etməsinə səbəb ola bilər. Turizm sadəcə, gedilən məkanlardan ibarət deyil-əslində, turizmin əsasını təcrübə təşkil edir. Bu təcrübə nəqliyyatdan başlayaraq qonaqpərvərliyə, qidalanmadan bələdçilik xidmətlərinə, təhlükəsizlikdən təmizliyə qədər uzanan geniş bir sahəni əhatə edir. Azərbaycanda son illər turizmin inkişafı ilə yanaşı, səyahət edənlərin təcrübəsinin keyfiyyəti də ön plana çıxmağa başlayıb (Muxtarova 2018).

Nəqliyyat xidmətləri turizmin inkişafında əsas amillərdən biridir. İnkişaf etmiş nəqliyyat infrastrukturu turistlərin rahatlığını təmin edir, yeni turizm məkanlarının kəşfini asanlaşdırır və ümumi turizm təcrübəsini zənginləşdirir (Muxtarova 2018).

Turizmdə nəqliyyat xidmətlərinin əsas rolları aşağıdakı göstərilmişdir.

- ✓ İqtisadi inkişafa töhfə verir. Turistlərin daşınması üçün istifadə olunan nəqliyyat xidmətləri yerli iqtisadiyyata və iş yerlərinin yaradılmasına müsbət təsir edir.
- ✓ Turizm mərkəzlərinin əlçatanlığını təmin edir. İnkişaf etmiş nəqliyyat infrastrukturu turistlərin şəhərlərarası və regionlararası səfərlərini asanlaşdırır.

- ✓ Təhlükəsizlik və rahatlıq yaradır. Müasir nəqliyyat texnologiyalarının tətbiqi turistlərin təhlükəsizliyini və komfortunu təmin edir.
- ✓ Turizm məhsulunun bir hissəsidir. Bəzi nəqliyyat növləri (kruiz gəmiləri, lüks qatarlar, turist avtobusları və s.) turizm xidmətlərinin bir hissəsi kimi fəaliyyət göstərir.

Ümumilikdə, nəqliyyat xidmətlərinin inkişafı turizmin hər bir mərhələsində mühüm rol oynayır və turizm iqtisadiyyatının inkişafına müsbət təsir göstərir.

## 1.2. Turizmdə nəqliyyat xidmətlərinin strukturu, növləri və əhəmiyyəti

Nəqliyyat xidməti insanların və yüklərin bir yerdən digərinə daşınmasını təmin edən fəaliyyət olaraq, əsas məqsədi bu daşıma prosesinin faydalı, etibarlı, rahat və əlverişli qiymətlə həyata keçirilməsini təşkil edir. Sənaye inqilabından indiki dövrə qədər nəqliyyat vasitələrindəki texnoloji inkişaflar, cəmiyyətlərin iqtisadi həyatında nəqliyyat xidmətlərinin mühüm rolunu vurğulamışdır. Hər hansı bir ölkənin iqtisadi sisteminin effektiv inkişafı üçün nəqliyyat infrastrukturu olmadan bu inkişaf mümkün deyil, çünki nəqliyyat xidmətləri bütün iqtisadi fəaliyyətlərin müxtəlif mərhələlərinə dəstək göstərir. Cəmiyyətin inkişaf etməsində nəqliyyatın mühim əhəmiyyəti vardır. Aşağıdakı Cədvəldə 1.1 də öz əksini tapmışdır.

Cədvəl 1.1 Cəmiyyətlərin inkişafında nəqliyyat xidmətlərin rolu

| |
|---|
| İqtisadi kriteriyelar |
| Nəqliyyat xidməti iqtisadiyyatın əsas ünsürü və istehsalın ayrılmaz bir parçasıdır |
| Nəqliyyat xidməti müxtəlif regionlarda məhsulların qiymətləndirilməsi və satılmasına şərait yaradır |
| İqtisadiyyatda tələb və təklif arasında tarazlığı təmin edir |
| Maya dəyərə təsir edərək iqtisadiyyatın maya dəyər quruluşunu dəyişdirir |
| Sosial kriteriyalar |

| |
|---|
| Nəqliyyat əhalinin ölkəyə tarazlı paylanmasını təmin edərək sıxlığa mane olur |
| Ölkədə mədəni birliyi təmin edir, kənd və qəsəbələrdə sosial inkişafı sürətləndirir |
| Siyasi kriteriyalar |
| Nəqliyyat kəndlə şəhər, dövlətlə cəmiyyət arasında inteqrasiyanı və eləcə də siyasi birliyi və informasiyanı qüvvətləndirir |
| Dövlət nəqliyyatla böyük iş görür və nəqliyyat dövlət mexanizminin daha yaxşı işləməsini təmin edir |

Mənbə: Usal, A., & Oral, S. (2001). *Turizm pazarlaması*. DEÜ.

Cədvəldən göründüyü kimi nəqliyyat xidmətləri yalnız iqtisadi fəaliyyətləri dəstəkləməkdən daha çox sosial və siyasi aspektləri də gücləndirir. Cədvəldəki kriteriyalar nəqliyyatın cəmiyyətin hər sahəsində, o cümlədən iqtisadiyyat, sosial həyat və siyasət üzərindəki təsirini göstərir. Bu xidmətlərin inkişafı, ölkənin ümumi rifahını artırmaqla yanaşı, cəmiyyətin daha güclü və inteqrasiya olunmuş olmasına gətirib çıxarır.

Səyahətlərin təşkili zamanı turizm təşkilatları tərəfindən turistlərin daşınması məqsədilə müxtəlif nəqliyyat növlərindən istifadə olunur. Nəqliyyat vasitələrinin standart beynəlxalq təsnifatı BMT-nin təklifləri əsasında işlənib hazırlanmış, Turizm statistikası üzrə tövsiyyələrdə (ÜTT 1994-cü il) əks olunmuşdur. Bu təsnifat həm daxili, həm beynəlxalq turizm üçün istifadə oluna bilər və aşağıdakı Cədvəl 1.2 də təsnifatı öz əksini tapmışdır.

Cədvəl 1.2 Nəqliyyat vasitələrinin standart beynəlxalq təsnifatı

| Kateqoriyalar | Bölgülər |
|---|---|
| 1. Hava nəqliyyatı | Cədvəl üzrə reyslər (müntəzəm) |
| | Cədvəldən kənar reyslər (çarter) |
| | Digər hava daşımaları |
| 2. Su nəqliyyatı | Sərnişin xətləri və bərələr |
| | Kruizlər |
| | Digərləri |

| | |
|---|---|
| 3. Quru nəqliyyatı | Dəmiryolu nəqliyyatı |
| | Şəhərlərarası və şəhərdaxili avtobuslar, digər ictimai nəqliyyat vasitələri |
| | 8 nəfərədək tutuma malik fərdi avtomobillər |
| | Avto-nəqliyyat vasitələrinin icarəsi |
| | Digər quru nəqliyyat vasitələri |

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır

Cədvəldən də göründüyü kimi kateqoriyalar və bölgülər nəqliyyatın müxtəlif növləri və onların turizm sektoru ilə necə əlaqələndirildiyini aydın şəkildə göstərir. Hava, su və quru nəqliyyatı arasında fərqli xidmətlər və sərnişin təcrübələri təqdim olunur. Bu kateqoriyalar həm sərnişin daşımalarını, həm də yüklərin daşınmasını təmin edən müxtəlif xidmətləri əhatə edir. Həmçinin, müasir nəqliyyat vasitələrinin inkişafı ilə turistlərin daha rahat və sürətli səyahət etməsi təmin edilir. Bu cədvəl, nəqliyyatın turizm sektorunda vacib rolunu, sərnişin və turist axınının necə artırıldığını izah edir.

Sürətli və kütləvi nəqliyyat vasitələrinin inkişafı, orta təbəqənin turizm fəaliyyətlərində iştirakını sürətləndirmişdir. Bu inkişaf, həmçinin qanunlara uyğun və yüksək keyfiyyətli turizmin formalaşmasına gətirib çıxarmışdır. Nəqliyyat, turizm sektorunun əsasını təşkil edir. Aşağıda nəqliyyatın turizm üçün əhəmiyyəti göstərilmişdir:

1. Nəqliyyatın inkişafı, turizm sənayesinin irəliləyişində və turist axınının artmasında əsas faktordur. Müasir və böyük sərnişin qruplarının daşınmasına imkan verən nəqliyyat vasitələri, daha çox turistin iştirakını təmin etmişdir. Nəqliyyatın inkişafı ilə turistlərin hərəkəti artmış, iki mərtəbəli avtobuslar, jumbo jetlər və böyük sərnişin gəmiləri kimi nəqliyyat vasitələrinin turizmə təsiri möhkəmlənmişdir.

2. Turistlərin görmək və yeni yerləri ziyarət etmək istəklərinə cavab olaraq, nəqliyyat vasitələrinin müxtəlifliyi turistlərin bölgələri daha sürətli və asan şəkildə ziyarət etmələrinə imkan yaratmışdır.
3. Beynəlxalq turizm, iqtisadiyyata valyuta daxil edən mühüm bir fəaliyyət sahəsidir. Nəqliyyatın inkişafı, beynəlxalq turizmin genişlənməsinə səbəb olur və turistlərin lüks və zaman tələblərinə uyğun xidmətləri təmin edir. Bu, daha çox turistin ölkələrə gəlməsini təmin edərək valyuta axınını artırır.

Turizmdə nəqliyyat xidmətlərinə aşağıdakılar aid edilir:

- ✓ Turizm daşımaları – turistlərin daimi yaşayış yerindən istirahət yerinə və əks istiqamətdə yerdəyişməsi
- ✓ Transfer – turistlərin qarşılanıb yola salınmasında nəqliyyat vasitələrindən istifadə olunması
- ✓ Turlar üzrə proqlam xidməti – ekskursiya daşımaları, marşrut üzrə daşımalar

Öz səyahətlərinin planlaşdırılması zamanı turistlər səyahətin təhlükəsizliyi, qiymətlər və güzəşt imkanlarının olması, komfortluq, çatdırılmanın sürəti , baqajın daşınması imkanı və onun çəkisi, səs və vibrasiya səviyyəsi və s. nəzərə alırlar.

Nəqliyyat xidmətləri turizm sektorunun inkişafında əvəzsiz rol oynayır və turizm fəaliyyətlərinin sürətlə böyüməsi üçün təməl təşkil edir. Bu sahədəki inkişaflar yalnız iqtisadi baxımdan deyil, həm də sosial və siyasi baxımdan cəmiyyətin daha güclü və inteqrasiya olunmuş olmasına şərait yaradır. Həmçinin, müasir nəqliyyat xidmətləri və infrastrukturunun təkmilləşdirilməsi, turistlərin rahat və təhlükəsiz səyahət etməsini təmin edir və ümumilikdə turizm sənayesinin inkişafına töhfə verir.

# FƏSİL II. AZƏRBAYCANDA TURİZMDƏ NƏQLİYYAT XİDMƏTLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN TƏHLİLİ

## 2.1. Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin maddi-texniki bazası

Azərbaycanda turizmin inkişafı nəqliyyat infrastrukturunun mövcud vəziyyətindən və onun modernizasiyasından asılıdır. Məhz turistlərin rahat şəkildə ölkə daxilində səyahət edə bilməsi, yüksək servis xidmətinin sağlanması nəqliyyat sisteminin inkişafına təkan verir. Son illərdə Azərbaycan hökuməti nəqliyyat sektorunun modernləşdirilməsinə böyük sərmayələr yatırmış və bu sahədə infrastrukturun genişləndirilməsi istiqamətində bir sıra irimiqyaslı layihələr həyata keçirmişdir.

Ölkəmizdədə nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması turizm sektorunun inkişafında müstəsna rol oynayır. Turistlərin rahat və təhlükəsiz səyahətini təmin etmək üçün ölkənin nəqliyyat infrastrukturu daim təkmilləşdirilir. Bu fəsildə, Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin mövcud vəziyyəti və onların təhlili təqdim olunur, turizm sektorunda nəqliyyat xidmətlərinin maddi-texniki bazası və mövcud vəziyyəti təhlil edilir.

Coğrafi və strateji mövqeyi Azərbaycanı hər zaman qabaqda gələn ölkələr sırasında göstərmişdir. Ölkəmiz Şərq və Qərbi birləşdirərək körpü rolunu üstlənir. Bu strateji mövqe nəqliyyat və logistika sektorunun inkişafına şərait yaradır. Son 10 ildə ölkə hökuməti nəqliyyat infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsi istiqamətində mühim əhəmiyyət kəsb edən bir sıra addımlar atmışdır. Bunlara Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tamamlanması və Ələt Dəniz Ticarət Limanının genişləndirilməsi daxildir ki, bu da Asiya və Avropa arasında ticarət və turizm əlaqələrinin güclənməsinə töhfə verir (Vüsalə Məhərrəmova, 2024).

Heydər Əliyev Beynəlxalq Hava Limanı hava sahəmizin qapısı hesab edilir və ən müasir maddi-texniki infrastruktur ilə təmin edilmişdir. Statistik göstəriciyə əsasən təkcə 2024-cü ildə hava limanı 7.5 milyondan çox sərnişinə xidmət göstərmişdir (Heydər Əliyev Beynəlxalq Hava Limanı, 2024). Bundan əlavə yükdaşıma xidməti üçün də təhciz edilən soyuq saxlama və müasir ümumi yük terminalları kimi obyektlər yaradılmışdır ki, bu da nəqliyyat və logistika xidmətlərinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Digər böyük şəhərlərdəki hava limanlarımızda da maddi-texniki baza gücləndirilir, turistlərə yüksək keyfiyyətli xidmət sağlanmasın təmin edir.

Ölkəmizin bir digər əhəmiyyətli nəqliyyat növü olan dəmir yolu xətləri turizmin inkişafında əhəmiyyətli rol üstlənir. Özəlliklə Bakı-Tbilisi-Qars dəmir yolu xətti tarixi boyu Asiya və Avropa arasında əlaqəni sağlayan əsas dəmir yolu xətti kimi çıxış edib, sərnişin və yük daşımalarında aktiv rol oynayıb. Turistlərin ölkə ərazisinə cəlb edilməsi üçün bu birbaşa dəmir yolu xətti turistlərin rahat və sürətli daşınmasını təmin edir.

Azərbaycan Dəmir Yolları (ADY) ölkəmizdə daxili və xarici relslərin idarəedicisi rolunu daşımaqdadır. Nazirlər kabinetinə tabe olan qurum sərnişin və yük daşımalarına nəzarət edir, yenidənqurma tədbirlərini həyata keçirir və bütün bunların fonunda təhlükəsizliyin təminatını sağlayır

Turistlərin ən çox istifadə etdiyi nəqliyyat xidmətlərində olan avtomobil nəqliyyatı Bakı şəhəri və digər böyük şəhərlərdə yaxşı inkişaf etdirilmiş, lazımı baza quruluşu təmin edilmişdir. Ölkəmizə gələn turistlərin, həmçinin dövlət əhəmiyyətli şəxslərin şəhər mərkəzinə gəlməsi üçün ən əsas yol olan Bakı Hava Limanı Magistralı ən son standartlara cavab verir. Tıxac Bakı şəhəri üçün əhəmiyyətli problemə çevrilmişdir. Bakı Hava Limanı Magistralında da bəzən bu cür tıxaclar mövcud olur və bunun həlli turistlərin daha rahat hərəkətini sağlaya

bilər. Bu yolda atılan addımlara misal olaraq, Airport-Bakı Avtobus xəttini (H1) göstərmək mümkündür (Vüsalə Məhərrəmova, 2024).

Avtomobil nəqliyyatı üçün mərkəzi idarəedici orqan sayılan "Azəravtonəqliyyat" sərnişinlərin bir məntəqədən digərinə rahat və təhlükəsiz şəkildə çatmasını sağlamaqdadır. "Azəravtonəqliyyat" bunun üçün avtonəqliyyatın inkişafı, rəqabətə əsaslanan bazarın formalaşdırılması və istehsal və əmək ehtiyatlarından tam şəkildə istifadə olunması kimi bəzi tədbirləri davamlı şəkildə görür. Ümumilikdə bütün proseslərə Nəqliyyat Nazirliyi nəzarət edir və ayrı- ayrı Nazirliklərin strukturların tənzimlənməsini aparır.

Ölkəmizin şərq sahilində yerləşən Xəzər dənizi su nəqliyyatının əsasını təşkil edir. Xəzər Dəniz Gəmiçiliyi su nəqliyyatında ticarət dənizçiliyinin həyata keçirilməsinə və turizmin inkişafına dəstək verir. Xəzər Dəniz Gəmiçiliyinin başlıca vəzifələri dənizdə baş verən səyahətlər zamanı təhlükəsizliyi təmin etmək, yükləri mühafizə etmək və qəza hallarının qarşısını almaqdır (Muxtarova, 2018).

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi təşkilatı ölkəmizin su hövzəsində olan gəmilərdə sərnişin və yük daşımalarına nəzarət, təhlükəsizlik, beynəlxalq konvenisyaların və müqavilələrin tələblərini həyata keçirmək kimi rollar oynamaqdadır.

Bakı metrosu şəhərdaxili nəqliyyatda mühüm rol oynayır və sərnişinlər üçün sərfəli və etibarlı nəqliyyat vasitəsidir. Metro stansiyalarında təhlükəsizlik kameraları və polis bölmələri mövcuddur ki, bu da sərnişinlərin təhlükəsizliyini təmin edir. Bundan əlavə, şəhərdə avtobus və taksi xidmətləri də geniş yayılmışdır. Son illərdə ictimai nəqliyyatın modernləşdirilməsi istiqamətində addımlar atılmış, avtobus parkı yenilənmiş və elektron ödəniş sistemləri tətbiq edilmişdir ki, bu da turistlər üçün şəhərdaxili hərəkəti asanlaşdırır.

Rahat və etibarlı nəqliyyat infrastrukturu turistlərin ölkəyə gəlməsini və daxili səyahətlərini asanlaşdırır. Məsələn, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin

istifadəyə verilməsi Gürcüstan və Türkiyə ilə turizm imkanını artırmışdır. Eyni zamanda, şəhərdaxili nəqliyyatın modernləşdirilməsi turistlərin şəhər içində rahat hərəkət etməsinə şərait yaradır.

Buna baxmayaraq, bəzi problemlər mövcuddur. Şəhərlərdə artan avtomobil sayı və urbanizasiya nəticəsində tıxaclar və hava çirkliliyi kimi məsələlər ortaya çıxır. Məsələn, Bakıda 2018-ci ildə verilən statistikaya əsasən hər 100 ailəyə 98 avtomobil düşürdü ki, bu da tıxacların artmasına səbəb olur. Bundan əlavə, ictimai nəqliyyat sisteminin bəzi sahələrdə köhnəlməsi və xidmət keyfiyyətinin aşağı olması turistlərin məmnuniyyətinə mənfi təsir göstərə bilər (Heydərov, 2011).

Son illərdə bu sahədə əhəmiyyətli irəliləyişlər əldə olunsa da, mövcud problemlərin həlli üçün əlavə tədbirlərin görülməsi zəruridir. Nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi turistlərin məmnuniyyətini artıracaq və ölkənin turizm potensialının tam reallaşdırılmasına töhfə verəcəkdir.

Azərbaycanda turizm sektorunun inkişafı üçün nəqliyyat infrastrukturunun gücləndirilməsi əsas prioritetlərdən biridir. Turistlərin ölkəyə giriş-çıxışının və ölkədaxili səyahətlərinin rahat təşkili üçün müasir hava, dəmir yolu, avtomobil və dəniz nəqliyyatı şəbəkəsi formalaşdırılmışdır.

Hava nəqliyyatı Azərbaycanın turizm sektorunda mühüm rol oynayır. Hava nəqliyyatının maddi-texniki bazasının gücləndirilməsi çərçivəsində yerli hava limanlarının qurulması və mövcud hava limanlarının yenidənqurması və modernizasiyası istiqaməintdə işlər aparılmışdır. Bu konteksdə, işğaldan azad edilən rayonlarda yaradılan yeni hava limanları gələcəkdə bu bölgədə turizmin inkişafını dəstək verəcəkdir. Bakı şəhərində yerləşən Heydər Əliyev Beynəlxalq Hava Limanı əsas beynəlxalq hava limanı hesab olunur. Buradan dünyanın 50-dən çox ölkəsinə uçuşlar həyata keçirilir (Heydər Əliyev Beynəlxalq Hava Limanı, 2024). Bundan əlavə digər böyük hava limanları olan Gəncə və Naxçıvan Beynəlxalq Hava Limanları regionların turizm potensialını artırmaq məqsədilə

fəaliyyət göstərir. İşğaldan azad edilmiş ərazilərdə yeni inşa edilmiş Zəngilan, Füzuli və Laçın hava limanları gələcəkdə bu bölgələrdə turizmin inkişafına töhfə verəcəkdir. Ümumilikdə bütün dövlət hava nəqliyyatı şirkətlərini özündə birləşdirən Azərbaycan Hava Yolları (AZAL), daxili və beynəlxalq uçuşları həyata keçirir və onların fəaliyyətinə nəzarət edilir. Həmçinin qeyd etmək lazımdır ki, "Buta Airways"-də 2023-cü ildə ləğv olaraq AZAL-ın tərkibinə keçib.

Azərbaycanda qədim dövrlərdən bəri inkişaf etmiş dəmiryolları nəqliyyatı sərnişinlərə paytaxt Bakıdan digər böyük şəhərlərə və digər qonşu ölkələrə səyahət imkanı sağlayır. Başlıca dəmir yolu xətti olan Bakı-Tbilisi-Qars dəmiryolu Azərbaycan-Gürcüstan-Türkiyə arasında yerləşən Azərbaycanın ən əhəmiyyətli dəmir yolu hesab edilir. Bundan əlavə Bakı-Sumqayıt və Bakı-Astara dəmiryolu xətləri  xüsusi ilə daxili turizmin inkişafında mühüm rol oynayır. Azərbaycanın yeni planlanan yüksək sürətli qatar layihələrində gələcəkdə sürətli dəmiryolu nəqliyyatının inkişafı nəzərdə tutulur.

Son illərdə Azərbaycanda magistral yolların yenilənməsi və yeni yolların çəkilməsi nəticəsində turizm mərkəzlərinə olan əlçatanlıq artırılmışdır. Avtobus nəqliyyatı Bakı şəhərində və regionlarda müasir avtobus parkı formalaşdırılmış, "BakuBus" şirkətinin avtobusları komfort və təhlükəsizlik baxımından turistlər üçün əlverişli hala gətirilmişdir. Turistlərin ən çox istifadə etdiyi taxi xidmətlərinə misal olaraq beynəlxalq şirkətlərin yerli nümayəndəlikləri: ‘Bolt’, ‘Yango’, ‘Uber’ və yerli ‘189 Taksi’, ‘*9933’ və s. göstərmək mümkündür. Bundan başqa müasir dünyada geniş yayılan “rent-a-car” avtomobil icarəsi xidmətləri turistlər üçün əlverişli seçimlər təqdim edir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı dəniz nəqliyyatında Xəzər dənizi vasitəsilə dəniz turizminin inkişafı üçün mühüm infrastruktur obyektidir. Həmçinin bulvarda kater və gəzinti gəmiləri dənizdə yerli və xarici turizmin inkişaf etdirir. Dəniz nəqliyyatı ümumi payın əhəmiyyətli hissəsini tutmasa da turizm üçün

önəmlidir. Turistlərə keyfiyyətli və təhlükəsiz xidmət maddi-texniki bazanın kifayət qədər olmasında asılıdır. Dəniz və çay nəqliyyatındüzgün infrastrukturun qurulması gələcəkdə turizmin bu qolunun inkişafı üçün vacibdir.

Azərbaycanın əsas hava qapısı olan Heydər Əliyev Beynəlxalq Hava Limanı müasir standartlara cavab verən infrastruktura malikdir. Heydər Əliyev Beynəlxalq Hava Limanında yeni tikilmiş terminal ərazisi, ən yeni cihazlarlar təmin edilmiş, müştərilərə xidmətin ümumi səviyyəsini artırmaq üçün müxtəlif iaşə obyektləri qurulmuş, təhlükəsizliyi beynəlxalq hava limanları səviyyəsinə çatdırılmışdır. Regionlarda olan Gəncə, Naxçıvan, Qəbələ və Lənkəran kimi şəhərlərdəki beynəlxalq hava limanlarının da maddi-texniki baza cəhətdən Heydər Əliyev Beynəlxalq Hava Limanı səviyyəsinə çatıdırlması üçün əsaslı quruculuq işləri gedir (World Economic Forum, 2017).

Dəmir yolu nəqliyyatı ölkədaxili və beynəlxalq səviyyədə turistlərin daşınmasında mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycanın tranzit potensialını artıraraq, regionda turizm əlaqələrinin genişlənməsinə şərait yaradır.

Ölkəmizdə nəqliyyat yollarının inkişafı və yeni avtobus xidmətlərinin təşkili üçün strateji addımlar atılmışdır. Onlarda bəziləri aşağıda qeyd olunmuşdur.

- ✓ Ələt-Astara-İran magistralı.Bu magistralda aparılan yenidənqurma işləri, yolların genişləndirilməsi, yeni asfalt-beton örtüyü və suötürücü qurğuların quraşdırılması, həmçinin, Ərçivançay və Astaraçay üzərindəki körpülər əsaslı təmir-quruculuq işləri magistralın istifadəsini artırmışdır.
- ✓ Bakı-Quba-Rusiya Sərhədi yeni magistralı. Ölkəmizin şimal sərhəddinə kimi uzanan magistralın 1-ci hissənin tikintisi artıq tamamlanıb (Yaşma və Giləzi qəsəbələri). Layihəyə əsasən bir çox körpü və yol ötürücüləri magistralda təmin edilib. Bu layihədə çəkilən yolun 150 km hissəsi ölkəmizdə ilk ödənişli yol kimi də tarixə düşmüşdür.

- ✓ Ağdam-Füzuli avtomobil yolu. Yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisindən keçərək, Ağdam, Ağcabədi və Füzuli rayonlarını birləşdirəcək. Layihə çərçivəsində dəmir-beton tipli küveytlərin tikintisi və ayırıcı zolaqda dəmir-beton baryerlərin quraşdırılması işləri aparılır.
- ✓ Qədim İpək yolu avtomobil magistralı. İpək yolu avtomobil magistralının bərbası bu istiqamətdə atılan ən mühim addımlardan sayılır. Avropa-Asiya nəqliyyat dəhlizinin (TRACECA-Transport Corridor Europe-Caucasus-Asia) bir qolu kimi tanınan ipək yolu magistralının qurulması 2 istiqamətdə nəqliyyatın inkişafına səbəb olmuşdur: Qazax-Tovuz-Gəncə-Yevlax-Ucar-Hacıqabul-Ələt-Bakı və Bakı-Ələt-Salyan-Lənkəran-Astara

Ölkəmizdə dəniz nəqliyyatı üçün Bakı Limanı mühim rol oynayır. Xarici turistlər üçün son illərdə inkişaf etdirilən kruizləri və digər su nəqliyyatı xidmətləri turistləri cəlb edir. Maddi-texniki bazanın yaxşı olması dəniz turizmini gəlirli turizm sektorlarından birinə çevirir.

Nəticə etibarilə, Azərbaycanda nəqliyyat xidmətlərinin maddi-texniki bazasının gücləndirilməsi turizm sektorunun inkişafında mühüm rol oynayır. Bu sahədə həyata keçirilən layihələr və yatırımlar ölkənin turizm potensialını artıraraq, daha çox turist cəlb etməyə şərait yaradır.

## 2.2. Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin mövcud vəziyyətinin təhlili

Azərbaycanda turizm sektorunun inkişafı üçün nəqliyyat xidmətlərinin optimallaşdırılması vacibdir. Bu sahədə bir sıra müsbət dəyişikliklər baş versə də, müəyyən problemlər də mövcuddur. Bu sahədə araşdırmaların aparılması, xüsusilə də ölkə mühitinin daha yaxşı mənimsənərək turizm imkanlarının öyrənilməsi gərəklidir.

Nəqliyyat xidmətləri sahəsində aparılan tədbirlər son illərdə genişlənsə də, hələ də bəzi sahələrdə boşluqlar mövcuddur. Xüsusi ilə də ölkəmizin ucqar rayonlarının turizm potenisalının yüksək olması, nəqliyyat şəbəkəsinin daha da genişləndirilməsini labüd edir. Bu konteksdə ölkəmizin turizm potensialı haqqında biliklərə yiyələnək adına aparılan təhlilləri gözdən keçirmək lazımdır. Beləliklə, gəlin aşağıda aparılan GZİT təhlil nəticələrini nəzərdən keçirək.

Cədvəl 2.1 Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin GZİT təhlili

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| ✓ Beynəlxalq hava şəbəkəsinə çıxışının olması<br>✓ Maddi-texniki bazanın inkişafı<br>✓ Şəxsi nəqliyyat vasitələrinin çoxluğu və əlverişli rent-a-car (maşın kirayələmə) xidmətləri.<br>✓ Bakı Metropoliteninin turistlər üçün əlverişli olması.<br>✓ Xəzər dənizi vasitəsilə dəniz turizmi | ✓ Bəzi regional turistik rayonlarda zəif nəqliyyat sistemlərinin hələ də qalması<br>✓ Məlumatverici lövhələrin azlığı, xəritələrin və lövhələrin yalnız Azərbaycan dilində olması<br>✓ Marşrutlarda gecikmələr və planlaşdırmanın zəifliyi<br>✓ Turist avtobus dayancaqlarının azlığı və köhnəlmiş olması<br>✓ Əksər sürücü və bələdçilərin xarici dil bilməməsi |
| **İmkanlar** | **Təhlükələr** |
| ✓ “Smart Tourism” və mobil nəqliyyat tətbiqlərinin inkişafı<br>✓ Alternativ turizm qolları-ekoturizm və kənd turizmi üçün nəqliyyat marşrut xəttələrinin yaradılması.<br>✓ Özəl sektor və dövlət tərəfdaşlığı ilə yeni nəqliyyat layihələrinin həyata keçirilməsi.<br>✓ Sürət qatarlarının gətirilməsi, yeni reyslərin açılması | ✓ Nəqliyyat xərclərinin yüksəlməsi<br>✓ Təhlükəsizlik tədbirlərinin azlığı<br>✓ Regionların qeyri-bərabər inkişafı, geosiyasi faktorların təsiri<br>✓ İqlim dəyişiklikləri və hava şəraitinə bağlı nəqliyyat problemləri<br>✓ Nəqliyyatın maddi-texniki bazasının bəzi bölgələrdə hələ də inkişaf etməməsi. |

Mənbə: https://e-qanun.az/framework/57127#_Toc469742688

Cədvəldən də göründüyü kimi GZİT təhlil turizm sektorunda nəqliyyatın cari vəziyyəti haqqında əsaslı təhlilin aparılması, mövcud perspektivlərin ortaya çıxarılması və güclü və zəif tərəflərin araşdırılması üçün gərəklidir. Bunun üçün aparılan GZİT təhlil zamanı ölkəmizdə turizm sektorunda nəqliyyat xidmətlərində

yaşanan çətinliklər vurğulanmışdır. Ölkəmizin turizm sektorunda qarşılaşa biləcəyi çətinliklərdə təhlildə ətraflı şəkildə qeyd edilmişdir. Aparılan GZİT təhlilin nəticələrinə əsasən güclü tərəflərə Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı özəlliklə də yeni magistral yolların, hava limanlarının və dəmiryolları inşa edilməsini vurğulmaq vacibdir. Beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsi, Azərbaycanın tranzit mərkəzə çevrilməsi ölkəyə gələn turistlərin sayını artırır. Müasir nəqliyyat vasitələrinin tətbiqi, "BakuBus" və yüksək səviyyəli avia xidmətlər turistlər üçün daha rahat şərait yaradır. Ağıllı nəqliyyat sistemlərinin tətbiqi çərçivəsində Bakı şəhərində nəqliyyatın idarə olunması üçün müasir texnologiyalardan istifadə edilir.

Təhlilin nəticəsinə əsasən nəqliyyat xidmətləri sahəsində cari problemlər və çətinlikləri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

- ✓ Nəqliyyat xidmətlərinin qiyməti-Bəzi xidmətlərin qiymətləri turistlər üçün baha hesab edilə bilər.
- ✓ Regionlarda nəqliyyat əlçatanlığının zəifliyi-Bakı və iri şəhərlərdə nəqliyyat inkişaf etsə də, ucqar regionlarda turizm yerlərinə çatmaq çətindir.
- ✓ Dəmiryolu xidmətlərinin məhdudluğu-Azərbaycanda turistik qatar marşrutlarının sayı azdır.
- ✓ Taksi xidmətlərində vahid tarif sisteminin olmaması-Bəzi taksi sürücüləri turistlərə yüksək qiymət tətbiq edir.
- ✓ Turizm nəqliyyatının ekoloji tələblərə cavab verməməsi-Elektrik və hibrid avtomobillərin istifadəsi məhdud səviyyədədir.

Yuxarıda qeyd olunan problemlərin aradan qaldırılması üçün bəzi islahatlar və inkişaf perspektivlərinin həyata keçirilməsi labüddür. Azərbaycanın turizm və nəqliyyat sektorunun inkişafı üçün regionlara yeni avtobus marşrutlarının açılması və turizm yerlərinə daha rahat nəqliyyat infrastrukturunun qurulması, turistlər üçün vahid nəqliyyat kart sisteminin yaradılması, beləliklə, onlar müxtəlif nəqliyyat

vasitələrindən istifadə edərkən rahat ödəmə sistemi əldə edə bilərlər, yaşıl nəqliyyat erasına keçid-elektrobuslar və hybrid maşınların sayının çoxaldılması kimi addımların atılması tövsiyə olunur.

Eyni zamanda, Azərbaycan dövlət statistika komitəsinin saytında (stat.gov.az) yerləşdirilən statistik məlumatlara nəzər yetirərək nəqliyyat xidmətinin mövcud vəziyyətini təhlili aşağıdakı Cədvəl 2.2 də göstərilmişdir.

Cədvəl 2.2 Ölkəyə gələn və gedən vətəndaşların nəqliyyat növlərindən istifadə üzrə sayı

min nəfər

| | 2006 | 2012 | 2019 | 2023 |
|---|---|---|---|---|
| **Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı-cəmi** | **1,262.0** | **2,484.1** | **3 170,4** | **2,085.8** |
| o cümlədən nəqliyyat növləri üzrə: | | | | |
| avtomobil | 767.3 | 891.7 | 1 268,2 | 565.7 |
| dəmir yolu | 204.4 | 404.4 | 408,9 | 3.1 |
| hava nəqliyyatı | 281.4 | 946.4 | 1 285,2 | 1,490.1 |
| su nəqliyyatı | 8.9 | 21.2 | 24,5 | 26.9 |
| digər | ... | 220.4 | 183,6 | - |
| **Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı - cəmi** | **1,835.9** | **3,874.4** | **5 567,7** | **1,868.7** |
| o cümlədən nəqliyyat növləri üzrə: | | | | |
| avtomobil | 1,147.2 | 2,030.3 | 3 636,9 | 558.7 |
| dəmir yolu | 266.4 | 666.4 | 588,1 | 2.4 |
| hava nəqliyyatı | 406.3 | 768.8 | 930,0 | 1,262.20 |
| su nəqliyyatı | 16.0 | 46.5 | 39,9 | 45.4 |
| digər | ... | 362.4 | 372,8 | - |

Mənbə: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/tourism_2024.zip

Cədvəldən göründüyü kimi nəqliyyat xidmətindən istifadə barədə Azərbaycan Dövlət Statistika Komitəsinin verdiyi məlumatlar öz əksini tapmışdır. Cədvəldən istifadə edərək qurulan qrafikdən müşahidə etmək mümkün olur ki,

2006-cı ildən bu yana su və hava nəqliyyatı daimi artım tempi ilə irəliləmişdir. Covid-19 pandemiyasının baş verməsi ilə quru sərhədləri bağlı olduğu üçün 2019-cu ildən avtomobil və dəmiryolu nəqliyyatından istifadə edən turistlərin sayı kəskin azalmışdır. Hətta dəmiryolu nəqliyyatından istifadə edən turistlərin sayı 2023-cü ildən 3.1 min-ə qədər azalmışdır. Digər yandan bu hava nəqliyyatından istifadə edən xarici ölkə vətəndaşlarının sayının artmasına səbəb olmuşdur. Azərbaycana gələn xarici vətəndaşların sayı və istifadə etdikləri nəqliyyat növü aşağdakı Şəkil 2.1 də öz əksini tapmışdır.

Şəkil 2.1 Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı-cəmi, min nəfər




Mənbə: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/tourism_2024.zip

Cədvəldən də göründüyü kimi hava nəqliyyatının ümumi sərnişin sayında nisbəti 2006-cı ildən (22.3%) bəri 3 dəfədən çox artmışdır (71.4%). Avtomobil nəqliyyatında bu göstərici 2 dəfə azalmış (27.1%), dəmir yolları pandemiyadan sonra 0% səviyyəsinə çatmış, su nəqliyyatı isə həmişəki kimi 1% ətrafında

qərarlaşmışdır. Eyni zamanda Cədvəl 2.3 də nəqliyyat növlərinin Azərbaycana gələn xarici ölkə vətəndaşlarının ümumi sayında pay nisbəti öz əksini tapmışdır.

Cədvəl 2.3 Nəqliyyat növlərinin Azərbaycana gələn xarici ölkə vətəndaşlarının ümumi sayında pay nisbəti

| Nəqliyyat növləri | 2006 | 2012 | 2019 | 2023 |
|---|---|---|---|---|
| avtomobil | 60.8% | 35.9% | 40% | 27.1% |
| dəmir yolu | 16.2% | 16.3% | 12.9% | 0.1% |
| hava nəqliyyatı | 22.3% | 38.1% | 40.5% | 71.4% |
| su nəqliyyatı | 0.7% | 0.9% | 0.8% | 1.3% |
| digər | 0% | 8.9% | 5.8% | 0% |

Mənbə: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/tourism_2024.zip

Cədvəldən də göründüyü kimi xarici ölkələrə gedən yerli vətəndaşlar avtomobil nəqliyyatı pandemiyada pik həddinə çatmış (3636.9 min), həmin dövrdə nisbətən az olan (930 min) hava nəqliyyatı istifadəçiləri 2023-cü ildə ən yüksək (1490.1 min) həddinə çatmışdır. Dəmir yolu nəqliyyatı pandemiyadan sonra kəskin şəkildə azalmış, cəmi 2.4 min nəfər turist daşımışdır (Azərbaycan Respulikası Dövlət Statistika komitəsi, 2024).

Ümumilikdə sərhəd-buraxılış məntəqələrindən keçən şəxslərin sayında pandemiyaya qədər 3 dəfə artan say (17464.3 min nəfər), pandemiyadan sonra 2006-cı il səviyyəsinə yaxınlaşmışdır (7860.4 min nəfər). 2023-cü ildə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ümumi sayın 54%-ni təşkil etmişdir. Ölkə ərazisinə daxil olan və tərk edən vətəndaşların sayı da pandemiyadan sonra 2-3 dəfə azalmış və 2006-cı il səviyyəsinə çatmışdır ( daxil olan 3908.1 min nəfər və tərk edən 3952.3 min nəfər) (Azərbaycan Respulikası Dövlət Statistika komitəsi, 2024).

Azərbaycanda turizm sektorunun inkişafı üçün nəqliyyat xidmətlərinin optimallaşdırılması böyük əhəmiyyət kəsb edir. Nəqliyyat, turizm fəaliyyətinin əsası olaraq, həm sərnişin, həm də yük daşımalarında vacib rol oynayır. Son illərdə bu sahədə müəyyən irəliləyişlər olsa da, hələ də bir sıra çətinliklər və problemlər

mövcuddur. Özəlliklə, ölkənin müxtəlif regionlarında nəqliyyat şəbəkəsinin zəif olması, bəzi sahələrdə xidmətin keyfiyyətinin aşağı olması və ətraf mühitə təsirin azaldılması ilə bağlı məsələlər hələ də gündəmdədir.

Cədvəl və təhlillərdən də göründüyü kimi, Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı, xüsusilə Bakı və iri şəhərlərdə mövcud nəqliyyat şəbəkələrinin gücləndirilməsi, ümumilikdə turizmin inkişafına müsbət təsir edir. Lakin, bölgələrdə hələ də nəqliyyatın əlçatanlığı zəifdir və bu da turizm potensialının reallaşmasına mane olur. Həmçinin, nəqliyyat qiymətləri və bəzi xidmət sahələrində qeyri-bərabərlik, turistlərin məmnuniyyətini aşağı sala bilər. Bu problemlərin həllinə yönəlik təkliflər arasında yeni avtobus marşrutlarının açılması, nəqliyyat kart sistemlərinin tətbiqi, ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin istifadəsinin artırılması və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi yer alır.

Nəqliyyat, Azərbaycanda turizmin inkişafında əsas amillərdən biri olmaqla yanaşı, həm də ölkə iqtisadiyyatı və sosial həyatına böyük təsir göstərir. Nəqliyyat xidmətlərinin yaxşılaşdırılması turizm sektorunun daha da inkişaf etməsi, beynəlxalq əlaqələrin genişlənməsi və ölkənin müxtəlif bölgələrində turizm potensialının reallaşmasına kömək edəcək. Azərbaycanın turizm sektoru üçün nəqliyyat infrastrukturunun inkişafı, ekoloji və texnoloji innovasiyaların tətbiqi və sərnişin məmnuniyyətinin artırılması məqsədilə müvafiq addımların atılması vacibdir.

Bu təhlilin nəticələri, Azərbaycanda turizm və nəqliyyat xidmətlərinin gələcək inkişafına dair daha çox araşdırma və islahatların həyata keçirilməsinin zəruriliyini göstərir.

# FƏSİL III. AZƏRBAYCANDA TURİZMDƏ NƏQLİYYAT XİDMƏTLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1. Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin inkişafında mövcud problemlər

Turizm sektorunun davamlı inkişafı üçün nəqliyyat xidmətlərinin modernləşdirilməsi və keyfiyyətinin artırılması vacib amillərdən biridir. İqtisadiyyat və Turizm nazirliyi tərəfindən son illərdə bu yöndə addımlar atılsa da, infrastruktur azlığı və digər problemlərin mövcudluğu hələ də öz yerində qalmaqdadır. Eyni zamanda, dünyanın müxtəlif ölkələrində tətbiq olunan uğurlu nəqliyyat həllərinin Azərbaycan turizm sektorunda istifadəsi mümkündür. Bunun üçün ilk öncə ölkəmizin nəqliyyat infrastrukturunun cari vəziyyətini müəyyən etmək, daha sonra isə boşluqları dolduraraq nəqliyyat xidmətlərini inkişaf etdirməl gərəklidir (Əsədov, 2025).

Tədqiqatın aparılmasında anket sorğudan istifadə edilmişdir. Sorğunun məqsədi Azzərbaycana turist kimi gələn xarici turistlər və yerli vətəndaşlar arasında ictimai nəqliyyat xidmətlərinin keyfiyyəti, əlçatanlığı və qiymətlərlə bağlı fikirlərin öyrənilməsidir. Anket sorğu google formsda hazırlanıbdır və 150 nəfər turist ( yerli və xarici) iştirak etmişdir. Aparılmış sorğuda 15 ədəd açıq və qapalı tipli suallar , 1-5 şkalası arasında razılıq anketi sorğu araşdırmasını daha dərindən tədqiq etməyə, eyni zamanda Azərbaycanda turizm sektorunda nəqliyyat xidmətinin inkişafı haqqında cari vəziyyəti öyrənməyə imkan verəcəkdir. Xarici turistləri nəzərə alaraq sorğu 2 dildə Azərbaycan və İngilis dillərində keçirilmişdir (Sorğu linki-https://forms.gle/DRgGBeXzTWYXaTsSA).

Sorğu nəticələrinə əsasən reqressiya analizinin nəticəsi aşağıdakı kimidir:

Analizin aparılması $R^2$(regressiya modelinin izah gücü) formulasından istifadə ediləcəkdir. $R^2$ modelin asılı dəyişəndəki (yəni proqnozlaşdırmaq

istədiyimiz dəyərdəki) dəyişkənliyin nə qədər hissəsinin müstəqil dəyişənlər vasitəsilə izah edildiyini göstərir. $R^2$ formula:

$$R^2 = 1 - \frac{SS_{qalıq}}{SS_{cəm}}$$

Sorğuda asılı dəyişən turistlərin Azərbaycanda nəqliyyat xidmətlərindən məmnun olmasıdır. Sorğunun müstəqil dəyişənləri isə təmizlik, rahatlıq, təhlükəsizlik, əlçatanlıq, ətraf mühitə təsir və s. kimi asılı dəyişənə təsir edən amillərdir.

$$Y = \beta_0 + \beta_1 X_1 + \beta_2 X_2 + \cdots + \beta_n X_n + \varepsilon$$

Burada Y - asılı dəyişən (ümumi məmnuniyyət), $X_1$- müstəqil dəyişənlər (suallar və göstəricilər), $\beta_1$ isə müvafiq regressiya əmsallarıdır. Düsturun tətbiqindən sonra model asılı dəyişənin (sorğumuzda , ümumi məmnuniyyət səviyyəsinin) xarici turistlər üçün $R^2$ determinasiya əmsalı 96.8% dəqiqliklə, yerli turistlər üçün isə 67.5% dəqiqliklə izah etdiyini göstərir.

Regressiya nəticələri aşağıdakı kimidir:

- ✓ Avtobus xidmətlərində təhlükəsizlik səviyyəsi qənaətbəxşdir: + 0.71
- ✓ Turistik məkanlara gedən ictimai nəqliyyat vasitələri asanlıqla əlçatandır: - 0.64
- ✓ Metro xidmətlərinin təmizliyi və rahatlığı qənaətbəxşdir: + 0.56
- ✓ Taksi xidmətlərində təhlükəsizlik səviyyəsi qənaətbəxşdir: - 0.34
- ✓ Taksi xidmətlərinin təmizliyi və rahatlığı qənaətbəxşdir: - 0.32
- ✓ Metro xidmətlərində təhlükəsizlik səviyyəsi qənaətbəxşdir: + 0.19
- ✓ Avtobus və metro reyslərinin tezliyi və iş saatları turistlər üçün kifayət qədər uyğundur: + 0.17
- ✓ Avtobusların təmizliyi və rahatlığı qənaətbəxşdir: + 0.17
- ✓ Nəqliyyat vasitələrinin ekoloji təmizliyi (ətraf mühitə az təsir) məni qane edir: + 0.14

- ✓ İctimai nəqliyyatda informasiya lövhələri və dayanacaq adları (azərbaycan və ingilis dillərində) kifayət qədər aydındır: + 0.14

Aşağıdakı Şəkil 3.1 də yerli turistlər üçün ən təsirli amillər öz əksini tapmışdır.

Şəkil 3.1 Yerli turistlər üçün ən təsirli amillər




Mənbə: https://forms.gle/DRgGBeXzTWYXaTsSA

Şəkildən göründüyü kimi yerli turislərə təsir edən amillər aşağıdakı kimi təsir etmişdir.

- ✓ Metro xidmətlərinin təmizliyi və rahatlığı qənaətbəxşdir: +0.38
- ✓ Taksi xidmətlərində təhlükəsizlik səviyyəsi qənaətbəxşdir: +0.37
- ✓ İctimai nəqliyyatda sərnişin sıxlığı (yer tapmaqda çətinlik) ciddi narahatlıq doğurmur: -0.33
- ✓ İctimai nəqliyyatda gediş haqqı turistlər üçün münasibdir: +0.28

- ✓ Taksi xidmətlərinin təmizliyi və rahatlığı qənaətbəxşdir: +0.25
- ✓ Avtobus və metro xidmətlərinin tezliyi və iş saatları turistlər üçün olduqca uyğundur: +0.23
- ✓ Avtobusların təmizliyi və rahatlığı qənaətbəxşdir: -0.21
- ✓ Nəqliyyat vasitələrinin ətraf mühitə uyğunluğundan (ətraf mühitə az təsir) razıyam: +0.17
- ✓ Metro xidmətlərində təhlükəsizlik səviyyəsi qənaətbəxşdir: +0.16
- ✓ İctimai nəqliyyatda məlumat lövhələri və dayanacaqların adları (Azərbaycan və ingilis dillərində) kifayət qədər aydındır: -0.15

Aşağıdakı Şəkil 3.2 də isə xarici turistlər üçün təsir edən amillər öz əksini tapmışdır.

Şəkil 3.2 Xarici turistlər üçün ən təsirli amillər




Mənbə: https://forms.gle/DRgGBeXzTWYXaTsSA

Şəkillərdən də göründüyü kimi ən təsirli amillər aşağıdakı nəticədə öz əksini tapmışdır.

- ✓ Xarici turistlər üçün məmnuniyyətə ən çox təsir edən 10 amili (pozitiv və neqativ təsirlərlə),
- ✓ Yerli turistlər üçün isə onların məmnuniyyətini ən çox izah edən amilləri vizual olaraq göstərir.

Reqressiya analizindən çıxan nəticələr əsasında xarici və yerli turistlər üçün nəqliyyat xidmətinin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı aşağıdakı təkliflər verilə bilər:

Xarici turistlər üçün:

- ✓ Təmizlik və sürücü davranışı əsas prioritet kimi qəbul olunmalı.
- ✓ Stansiya sıxlığı və çirklilik kimi neqativ amillər azaldılmalıdır.
- ✓ Ödəniş və qiymət sistemi daha da asanlaşdırıla bilər.

Yerli turistlər üçün:

- ✓ Avtobus xidmətlərinin keyfiyyəti artırılmalıdır.
- ✓ Əlçatanlıq (məsələn: dayanacaq məsafəsi, interval) problemini azaltmaq vacibdir.
- ✓ Metro xidmətlərinin yaxşı dəyərləndirilməsi bu istiqamətdə müsbət haldır və dəstəklənməlidir.

Azərbaycan Respublikasında turizm sahəsi son illərdə dövlətin strateji prioritetlərindən birinə çevrilmişdir. Elə bu məqsədlə verilən 2016-cı il 6 dekabr tarixli fərman, "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair Strateji Yol Xəritəsi" xüsusi rol oynayır. Bu sektorun sürətli inkişafı nəqliyyat sisteminin düzgün quruluşundan, xidmətlərin keyfiyyətli, rahat və əlçatanlığından birbaşa olaraq asılıdır. Bu baxımdan, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və xidmət səviyyəsinin yüksəldilməsi turizmin dayanıqlı inkişafı üçün vacib əhəmiyyət kəsb edir. (M. Abdullayeva, 2022)

Turizm sahəsində müəyyən irəliləyişlər olsa da, hələ də həllini gözləyən problemlər mövcuddur. Nəqliyyatın keyfiyyətinin artırılması, daxili və beynəlxalq

marşrutların genişləndirilməsi, nəqliyyat infrastrukturu ilə bağlı mövcud problemlərin araşdırılması və həlli istiqamətində təkliflərin verilməsi mövzunun aktuallığını daha da artırır.

Araşdırmadan dan aydın olduğu üzrə Azərbaycanda nəqliyyat xidmətlərinin inkişafı turizm sektoruna böyük töhfələr verir. Mövcud imkanlardan istifadə edərək infrastrukturun təkmilləşdirilməsi və xidmət keyfiyyətinin artırılması turizm sahəsinin daha da sürətli inkişafına səbəb olacaqdır. Maddi-texniki bazanın təmin edilməsi turizmin bütövlükdə ölkə ərazisinə yayılmasına şərait yaradacaqdır.

Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin inkişafında 5 əsas problem müşahidə olunur:

1. Nəqliyyat infrastrukturunun regionlar üzrə qeyri-bərabər inkişafı-Azərbaycanda nəqliyyat infrastrukturu daha çox Bakı və böyük şəhərlərdə inkişaf etsə də, regionlarda və xüsusilə ucqar turizm məkanlarında nəqliyyat əlçatanlığı zəifdir. Məsələn, Quba, Şəki, Qax, Lerik kimi turizm potensialı yüksək olan bölgələrə nəqliyyat xidmətləri bəzi hallarda məhdud səviyyədədir. Özəlliklə dağ rayonlarında nəqliyyat yollarında baş verən çətinliklər turizmin sərbəst inkişafına maneələr törədir. Prolemin həlli üçün regionlar üzrə yeni avtobus marşrutlarının açılması və mövcud marşrutların optimallaşdırılması, regionlarda yol infrastrukturunun yaxşılaşdırılması və turizm obyektlərinə aparan yolların yenilənməsi, redionlarda yeni daxili hava limanlarının yaradılması həll yolları olaraq göstərilə bilər.

2. Dəmiryolu xidmətlərinin məhdudluğu-Azərbaycan dəmir yolu xəttlərinin azlığı- əsasən Bakı və digər böyük şəhərlər arası – turizmin bu cəhətdən inkişafına maneə olur. Nəzərə alsaq ki, xüsusi ilə Avropa dövlətlərində nəqliyyatın bu növü ucuz və rahatlıq cəhətdən geniş istifadə edilir, ölkəmizdə də dəmir yolu nəqliyyatı inkişaf etdirilməlidir. (Ismayılov Pərvin, 2018). Turistlər üçün Bakı–Şəki, Bakı–Qəbələ, Bakı–Lənkəran kimi xüsusi qatar marşrutlarının açılması, yüksək sürətli

dəmiryolu xətlərinin genişləndirilməsi və modern qatarların istifadəyə verilməsi, dəmiryolu xidmətlərinin beynəlxalq turistlər üçün uyğunlaşdırılması (bilet sisteminin onlayn satışı, çoxdilli xidmətlər) tədbirlar planı çərçivəsində hazırlanıb həyata keçirilə bilər.

3. Turistlər üçün vahid nəqliyyat sisteminin olmaması-Hazırda ölkəmizdə xarici və yerli turistlərə xidmət keyfiyyətinin yaxşılaşdırılması və məntəqələrə çatdırılması üçün baza proqramı və mobil tətbiqlər mövcud deyil. Bu biletlərin alınması, müştəri rahatlığının təminatı və turizmin inkişafı üçün xüsusui əhəmiyyət daşıyır. Problemin həlli çərçivəsində "Turist Nəqliyyat Kartı" sisteminin yaradılması və bu kart vasitəsilə turistlər metro, avtobus, qatar və hətta bəzi taksi xidmətlərindən vahid ödəniş sistemi ilə istifadə edə bilər. Vahid mobil tətbiqin hazırlanması və istifadəsi də xüsusi əhəmiyyət daşıyır

4. Taksi xidmətlərində nəzarətin olmaması-Azərbaycanda turistlər üçün ən çox şikayət olunan məsələlərdən biri taksi xidmətlərində vahid tarif sisteminin olmamasıdır. Bəzi hallarda turistlər yüksək tariflərlə qarşılaşır və bu, onların narazılığına səbəb olur. Bu narazılığın aradan qaldırılması üçün özəlliklə turistlər üçün rəsmi taksi xidmətlərinin siyahısının və tövsiyə edilən tariflərin müəyyən olunması., mobil tətbiqlərin genişləndirilməsi və bütün turist məkanlarında rəsmi taksi məntəqələrinin qurulması lazımdır.

5. Turizm nəqliyyatının ekoloji tələblərə uyğun olmaması-Azərbaycanda ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin turizm sektorunda tətbiqi hələlik məhdud səviyyədədir. Elektrik avtobusları və hibrid avtomobillərin sayı azdır. Bu yolda atılacaq addımlara ekoloji nəqliyyat vasitələrinin artırılması – elektrik avtobuslar, velosiped yolları, hibrid taksilərin istifadəyə verilməsi və yaşıl turizm konsepsiyasının təşviqi – turistlərin ekoloji nəqliyyatdan istifadə etməsinə dəstək verən layihələrin həyata keçirilməsini misal çəkmək olar.

## 3.2. Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin inkişafında beynəlxalq təcrübənin tətbiqi

Turizmin inkişafı böyük kapital qoyuluşunu tələb edən və ölkə iqtisadiyyatını qaldıran yeni yolların salınmasına səbəb olur. Yolların salınması isə çoxlu iş yerlərinin meydana gəlməsinə səbəb olur və işsizlik kimi ağır sosial-iqtisadi problemin həllinə müsbət təsir göstərir. Turist mərkəzlərinin dənizlərin, göllərin və okeanların sahillərində yerləşməsi katerlərin, katamaranların və gəmilərin, su motorollerlərinin və yelkənli qayıqların istehsalını genişləndirmişdir.

Dünyanın müxtəlif ölkələrində turizm sektorunda nəqliyyat xidmətlərinin inkişafı üçün uğurlu modellər tətbiq olunaraq təcrübə edilmişdir. Bu təcrübələrin Azərbaycan turizminə inteqrasiyası mümkün və faydalı ola bilər. Özəlliklə Avropa ölkələrinin təcrübələrindən istifadə edilməsi nəqliyyat xidmətlərinin kefyiyyətinin artırılması baxımından mühimdir.

Avropa ölkələrində inteqrasiya olunmuş nəqliyyat sistemləri aşağıdakı kimi qeyd olunmuşdur.

1. Avropa şəhərlərində turistlər üçün vahid nəqliyyat kartları geniş istifadə olunur. "Paris Visite" kartı Fransada turistlər üçün metro, avtobus və tramvaylardan istifadəni əhatə edən xüsusi kartdır. Almaniyada "Berlin WelcomeCard" (Almaniya) kartı nəqliyyat və muzey girişlərini özündə birləşdirən turistik nəqliyyat sisteminə əlçatanlığı sağlayır. Ən böyük turistik şəhərlərin başında gələn London üçün "London Travelcard" -ın istifadəsi turistlər üçün müxtəlif nəqliyyat növlərini əlçatan edir . Ölkəmizdə isə vahid nəqliyyat gediş kartlarının olmaması bu cəhədən turistlərin rahat hərəkətinə maneə olur. Azərbaycanda "Baku TravelCard" və ya "Azerbaijan Tourist Card" adlı vahid nəqliyyat sisteminin yaradılması ilə metro, avtobus, qatar və hətta turistik marşrut avtobuslarını əhatə edən inteqrasiya olunmuş sistemin tətbiqi bu boşluqların aradan qaldırılmasını sağlaya bilər.

2. Yüksək sürətli dəmiryolu marşrutları (Yaponiya və Çin modeli). Yaponiyada Shinkansen sürətli qatarları və Çindəki maglev texnologiyası turizm sektoruna böyük töhfə vermişdir. Qatar, turistlərin ən sevdiyi turizm nəqliyyat növlərindən biri hesab edilir. Bu səbəbdən xüsusi ilə şimal rayonlarına olan qatar relslərinin sayı artırılmalı, sürət qatarları dövriyyəyə buraxılmalıdır. Bakıdan bölgələrə yaradılacaq sürət qatarları relsi dımir yolu turizminin inkşaf etdirilməsinə böyük töhfə verə bilər. (K, Zakiryanov B, 2020) Azərbaycanda Bakı–Qəbələ sürətli qatar xəttinin yaradılması, bakıdan regionlara sürətli dəmiryolu xətlərinin inşası və mövcud relslərin yenilərək sürət qatarına uyğunlaşdırıması ilə Yaponiya və Çin modeli tətbiq edilə bilər.

3. Turistlər üçün xüsusi avtobus marşrutları (İspaniya və İtaliya modeli).İspaniya və İtaliyada turistlər üçün xüsusi avtobus marşrutları fəaliyyət göstərir. Məsələn, "Hop-on Hop-off" turist avtobusları şəhərin əsas turistik yerlərinə xidmət göstərir. Bakıda və regionlarda "Hop-on Hop-off" avtobuslarının istifadəyə verilməsi, turistik marşrut avtobuslarının regionlara genişləndirilməsi tətbiq edilərsə turizmin bu sahəsində inkişaf təmin edilə bilər.

4. Ekoloji nəqliyyatın təşviqi (Hollandiya və Danimarka modeli). Hollandiya və Danimarka velosiped nəqliyyatının inkişaf etdiyi ölkələrdir. Turistlər üçün xüsusi velosiped yolları və kirayə xidmətləri mövcuddur. Azərbaycanda 2024-cü ildən etibarən şəhərdaxili velosiped zolaqlarının çəkilməsinə başlanılmışdır. Bu fonda yeni elektrikli velosipedlər turistlərin və yerli sakinlərin xidmətinə verilmişdir ( Zakiryanov , 2020). Bakıda və turistik bölgələrdə velosiped yollarının salınması, elektrik avtobusların sayının artırılması və yaşıl turizmin təşviqi, elektrik taksilərinin dövrüyəyə buraxılması istiqamətində 2024-cü ildən etibarən işlər gedir.

Avro Domino bileti-Avropa Dəmiryolu idarəsi ilə Mərakeş və bir sıra dənmir yolu şirkətləri tərəfindən yaradılan Avro Domino biletləri Avropa ölkələri

arasında 8 günə qədər limitsiz səyahət imkanı sağlayır. Bu xidmətlər 26 yaşdan böyüklərə bir aylıq istifadə müddəti verir və 12 yaşdan aşağı uşaqlar 50% endirim ilə səyahət edirlər. Normal tranzitdən 25% ucuz olan bu yataqsız və ya yataqlı səyahət vaqonları müxtəlif xüsusiyyətlərə görə qiymətdə dəyişkənlik göstərir.

Balkan Flexipass-Balkan ölkələri arasında səyahət imkanı sağlayan limitsiz səyahət kartıdır. Buraya Türkiyə , Makedoniya, , Yunanıstan, Rumuniya və Bolqarıstan daxildir. Eyni Avro Domino bileti kimi 12 yaşdan aşağı uşaqlar 50% endirim ilə səyahət edirlər

Rent-a-car xidmətləri müasir dövrdə sürətlə inkişaf edir və turistlər üçün avtomobil nəqliyyat xidmətini təmin edir. Əvvəllər bu xidmətdən iş adamları çox istifadə etsə də müasir dövrdə öz əyləncə-səyahət məqsədləri üçün bunu edir.

Dəniz turizminin əsasını təşkil edən kruiz turizm 20-ci əsrin sonralarından bəri sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur. Kruiz turizminin 80%-dən çoxunu təşkil edən 4 böyük şirkət(Carnival Cooperation, Princess and Star Cruises, P & O və Royal Caribbean Cruise Line) müştərilərə ən yüksək standartlarda xidmət göstərir. Aralıq dənizi kruiz turizminin 78%-ni təşkil edir. Ölkəmizdə də təzə inkişaf edən kruiz və yaxta turizmi ekskursiya, idman və əyləncə məqsədilə, az sayda turistin xidmətinə verilən, çox da böyük olmayan gəmilərlə edilir.

Hava nəqliyyatı vaxt cəhətdən məsafələri ən qısa zamanda və rahat şəkildə aşan nəqliyyat növüdür. Dünyanın bir çox ucuz hava nəqliyyatı şirkətləri, hər il milyonlarla turisti mənzil başına çatdırır.

Easy-Jet – Avropanın ən ucuz hava nəqliyyatı şirkətidir. Şirkətə məxsus 100-dən çox Boeing737 və Airbus A319 təyyarələri hər il 100 milyondan çox sərnişin daşınmasına iştirak edir. Bundan başqa Ryanair və Soutwest Airlines kimi avropa şirkətləri də yüksək rezervasiya nisbəti ilə müştərilərə xidmət göstərir. Bazarda olan şirkətlərin sayının artması qiymətlərin aşağı düşməsinə hətta bəzilərinin ziyanda işləməsinə səbəb olmuşdur.

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**

Aparılmış tədqiqat və empirik təhlillər nəticəsində məlum olmuşdur ki, Azərbaycanda turizm sektorunun davamlı inkişafı üçün nəqliyyat xidmətlərinin keyfiyyəti, əlçatanlığı və təhlükəsizliyi həlledici rol oynayır. Tədqiqatın nəzəri-metodoloji çərçivəsində aparılmış GZİT və reqressiya analizləri göstərdi ki, nəqliyyat infrastrukturunun güclü tərəfləri-beynəlxalq hava əlaqələri, yeni magistral yolların çəkilməsi, dəmir yollarının inkişafı və rəqəmsallaşma təşəbbüsləri-ölkənin turizm potensialının yüksəldilməsinə şərait yaradır. Eyni zamanda, bəzi regionlarda nəqliyyat əlçatanlığının zəif olması, tarif sisteminin tənzimlənməməsi, ekoloji nəqliyyat vasitələrinin azlığı və xidmət keyfiyyətinin qeyri-bərabərliyi hələ də ciddi problemlər olaraq qalır.

Sorğu nəticələrinə əsaslanan reqressiya analizi sübut etdi ki, həm yerli, həm də xarici turistlər üçün nəqliyyat xidmətlərinin təmizliyi, təhlükəsizliyi, əlçatanlığı və ekoloji uyğunluğu ümumi məmnuniyyətə əhəmiyyətli dərəcədə təsir göstərir. Həmçinin, beynəlxalq təcrübə də göstərir ki, vahid nəqliyyat kartlarının tətbiqi, sürətli dəmir yolları, “yaşıl nəqliyyat” və xüsusi turistik marşrutların yaradılması turizm sektorunun rəqabət qabiliyyətini artırmaqda mühüm vasitədir.

Tədqiqatın nəticələri əsasında aşağıdakı strateji və operativ təkliflər irəli sürülür:

1. Nəqliyyat infrastrukturunun regional balans əsasında inkişafı

- ✓ Ucqar və turizm potensialı yüksək olan rayonlara (məsələn, Qax, Şəki, Lerik, Zaqatala və s.) yeni avtomobil yollarının çəkilməsi və müntəzəm avtobus marşrutlarının yaradılması.
- ✓ Regionlarda hava nəqliyyatı üçün daxili uçuşların sayının artırılması və kiçik hava limanlarının tikintisi.

2. Dəmir yolu nəqliyyatının turizmə inteqrasiyası
   - ✓ Bakı–Şəki, Bakı–Qəbələ, Bakı–Lənkəran kimi turist axını çox olan istiqamətlərdə sürətli dəmir yollarının istifadəyə verilməsi.
   - ✓ Dəmir yolu xidmətlərinin turistlər üçün çoxdilli informasiya, onlayn bilet sistemi və rahat platformalarla təchiz olunması.
3. Turistlər üçün vahid nəqliyyat sisteminin yaradılması
   - ✓ “Azerbaijan Tourist Transport Card” adlı vahid nəqliyyat kartı sisteminin tətbiqi: metro, avtobus, qatar və şəhərdaxili taksi xidmətləri üçün eyni ödəniş platforması.
   - ✓ Mobil tətbiq vasitəsilə real vaxtda marşrut planlaşdırma, bilet alma və nəqliyyat vasitələrinin izlənməsi imkanlarının yaradılması.
4. Taksi xidmətlərində tənzimləmə və keyfiyyət standartlarının tətbiqi
   - ✓ Rəsmi taksi xidmətlərinin siyahısının hazırlanması və vahid tariflərin müəyyən olunması.
   - ✓ Taksi sürücüləri üçün davranış və xarici dil bilikləri üzrə təlimlərin təşkili.
5. Ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin tətbiqi
   - ✓ Elektrik avtobusları, hibrid taksilər və velosiped icarəsi kimi “yaşıl nəqliyyat” vasitələrinin genişləndirilməsi.
   - ✓ Bakı və turizm bölgələrində velosiped yollarının çəkilməsi və elektrikli mikromobillik vasitələrinin dəstəklənməsi.
6. İnformasiya və təhlükəsizlik sistemlərinin gücləndirilməsi
   - ✓ Marşrut cədvəlləri, dayanacaqlar və nəqliyyat lövhələrinin həm Azərbaycan, həm də ingilis dillərində təqdim edilməsi.
   - ✓ Bütün nəqliyyat vasitələrində video nəzarət və təhlükəsizlik sistemlərinin tətbiqi.

7. Beynəlxalq təcrübənin inteqrasiyası

- ✓ “Hop-on Hop-off” turistik avtobuslarının Bakı və regionlarda istifadəyə verilməsi.
- ✓ “Paris Visite” və “Berlin WelcomeCard” kimi çoxfunksiyalı nəqliyyat və mədəniyyət kartlarının yaradılması.
- ✓ Kruiz və yaxta turizminin inkişafı üçün Xəzər dənizində beynəlxalq səviyyəli su nəqliyyatının təşviqi.

8. Rəqəmsallaşma və ağıllı turizm sistemlərinin tətbiqi

- ✓ Ağıllı dayanacaqlar, QR-kodlu marşrut planları və mobil ödəniş sistemləri ilə turistlərin rahatlığı artırılmalıdır.
- ✓ “Smart Tourism Azerbaijan” platforması çərçivəsində nəqliyyat təcrübəsi tam rəqəmsallaşdırılmalıdır.

Bu nəticə və təkliflər bölməsi buraxılış işinizi həm akademik, həm də tətbiqi baxımdan gücləndirəcək və Azərbaycanın turizm sektorunda nəqliyyat xidmətlərinin strateji inkişaf istiqamətlərini aydın şəkildə təqdim edəcək. Əgər istəsəniz bu bölməni ayrıca Word sənədi şəklində də təqdim edə bilərəm.

# ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayeva, M. (2022). Müasir dövrdə Azərbaycan turizminin inkişafında dövlət siyasəti. Doktorant və Gənc Tədqiqatçıların XV Beynəlxalq Elmi Konfransı, ADMİU.
2. Allahverdiyev, S. (2005). Nəqliyyat müqavilələri (nəqliyyat qanunvericiliyinin elmi-praktiki kommentariyası). I hissə. Bakı: Digesta.
3. Azerbaijan.travel. (n.d.). Sustainable tourism strategy. https://azerbaijan.travel/sustainable-tourism-strategyaz
4. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2022). Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı. https://e-qanun.az/framework/49162
5. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2023). Milli inkişaf planı haqqında [Qanun]. https://e-qanun.az/framework/57127
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). Azərbaycandaturizm.https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/tourism_2024.zip
7. Azərbaycan Turizm Bürosu. (2023). Azərbaycan Respublikasının turizm strategiyası 2023–2026, 5–18. https://www.tourismboard.az/storage/2023/04/14/gqOjhi3H9LWyPN9Yn4IBE9xlJklDNoTRc8oLSeYT.pdf
8. Dinu, A.-M. (2018). The importance of transportation to tourism development. ResearchGate, 7(1), 92.
9. Əsədov, A. (2011, İyun 2). Azərbaycanda nəqliyyat və turizm sektorlarının davamlı inkişafı - problemlər və perspektivlər. ResearchGate. https://www.researchgate.net/publication/388362897

10. Əsədov, A. (2025). Turizmin sürətli inkişafı geniş marketinq araşdırmalarının aparılmasını tələb edir. ANL. http://anl.az/down/meqale/xalqqazeti/2010/oktyabr/138187.htm
11. Əzizov, K. (2010). Azərbaycan Respublikasında turizmin inkişafı ilə əlaqədar olaraq dəmiryolu nəqliyyatının inkişafı və perspektivləri. Qədim Diyar, 1–5. https://journals.indexcopernicus.com/api/file/viewByFileId/2012588
12. Graham, A., & Dobruszkes, F. (Eds.). (2019). Air transport – A tourism perspective. Amsterdam: Elsevier.
13. Heydərov, Ş. (2011). Turizmdə nəqliyyat xidmətlərinin təşkili. Mingəçevir: Nəşr olunmamış əlyazma.
14. İqtisadiyyat Nazirliyi. (2016). Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.
15. İsmayılov, P. (2017). Turizmin sosial-iqtisadi inkişaf problemlərinin həllində rolu. UNEC. https://unec.edu.az/application/uploads/2018/11/smay-lov-P-rvin.pdf
16. Məhərrəmova, V. (2019). Turizmin təşkili. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti. https://www.e-derslik.edu.az/noduploads/vet_pdf/turizm-taskili.pdf
17. Məhərrəmova, V. (2024, Dekabr 31). Turizmin təşkili [Layihə]. Avropa İttifaqı tərəfindən maliyyələşdirilmişdir.
18. Məmmədov, D. A. (2023). Nəqliyyat logistikası: Mühazirə konspekti.
19. Məmmədova, A. (2025). Turizmdə nəqliyyat xidmətlərinin təşkili. Scribd. https://www.scribd.com/document/775753457/Turizmde-Neqliyyat-Xidmetlerinin-Teshkili
20. Milli Turizm. (2017). Ümumi nəticə: Azərbaycan Respublikasında turizm strategiyası. Bakı: Mədəniyyət və Turizm Nazirliyi.

21. Muxtarova, R. (2018). Azərbaycan Respublikasında nəqliyyat xidmətləri bazarının formalaşması və inkişaf perspektivləri (Magistr dissertasiyası). Bakı.
22. Pirimova, L. (2011). Azərbaycanda turizmin vəziyyəti. WordPress.com. https://lemanpirimova.wordpress.com/2011/01/29/az%C9%99rbaycanda-turizmin-v%C9%99ziyy%C9%99ti/
23. Sorğu forması – Respondentlər üçün anket. (2025). https://forms.gle/DRgGBeXzTWYXaTsSA
24. Şirinova, N. (2018). Turizm xidmətlərinin təşkili problemləri. UNEC. https://unec.edu.az/application/uploads/2018/12/irinova-N-rmin-Raqif-q-z-n-n.pdf
25. World Economic Forum. (2017). The travel & tourism competitiveness report 2017. Geneva: WEF.
26. Zakiryanov, K. B. (2020). Analysis of international experience in the tourism industry development on the example of animation activities. География и водные ресурсы(4). https://cyberleninka.ru/article/n/analysis-of-international-experience-in-the-tourism-industry-development-on-the-example-of-animation-activities

# AZƏRBAYCANDA TURİZM SEKTORUNDA NƏQLİYYAT XİDMƏTİNİN İNKİŞAFİ

## XÜLASƏ

Azərbaycanda turizm potensialının artırılması üçün nəqliyyat xidmətlərinin inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə atılan addımlar-xüsusilə də güclü maddi-texniki bazanın təmin edilməsi və infrastrukturun yaradılması-turizmin ümumi inkişafında mühüm rol oynayır. Turizmdə nəqliyyat xidmətləri iqtisadi inkişafı stimullaşdırır, turizm mərkəzlərinin əlçatanlığını təmin edir, təhlükəsizlik və komfort yaradır. Əgər bu sahəyə ayrılan diqqət və investisiyalar gələcəkdə daha da artırılarsa, Azərbaycan öz turizm potensialından daha səmərəli istifadə edə bilər.

Birinci fəsildə Azərbaycanda turizm sektorunda nəqliyyat xidmətləri sahəsində mövcud olan problemlər – regionlar üzrə infrastrukturun qeyri-bərabər inkişafı, dəmir yolu xidmətlərinin məhdudluğu, turistlər üçün vahid nəqliyyat sisteminin yaradılmaması, taksi xidmətlərinə nəzarətin zəifliyi, nəqliyyatın ekoloji tələblərə cavab verməməsi – araşdırılır və bu problemlərin turizmin inkişafına maneə yaratdığı göstərilir. Nəqliyyat xidmətlərinin inkişafı üçün beynəlxalq təcrübənin tətbiqi vacib sayılır. Dünyanın qabaqcıl turizm ölkələrində tətbiq edilən modellər və bu modellərin Azərbaycanın turizm sektoruna inteqrasiyası nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsi üçün faydalı ola bilər.

İkinci fəsildə isə tədqiqat metodologiyasında istifadə edilən təhlil üsulları mövzuya daha dərindən yanaşmağa imkan verir. Xüsusilə SWOT təhlili və reqressiya analizindən əldə edilən nəticələr, turizm sektorunda atılmalı addımlar üçün strateji yol xəritəsi rolunu oynayır. Dövlət Statistika Komitəsindən əldə edilən statistik məlumatlar və onların qrafik formada təqdim edilməsi turizm sektorunun cari vəziyyətinin daha aydın şəkildə qavranmasını asanlaşdırır.

Üçüncü fəsildə isə Azərbaycanda turizmdə nəqliyyat xidmətlərinin inkişaf perspektivləri, mövcud problemlər və onların həlli yolları, eləcə də beynəlxalq təcrübənin tətbiqi məsələləri ətraflı şəkildə araşdırılır.

Ümumilikdə, aparılmış tədqiqatlar göstərir ki, turizm Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri kimi son illərdə dövlət proqramları vasitəsilə dəstəklənmiş, bu sahəyə maliyyə və insan resursları yönəldilmişdir. Azərbaycanda nəqliyyat xidmətlərinin keyfiyyəti həm yerli, həm də xarici turistlərin səyahət təcrübəsinə ciddi təsir göstərir. Paytaxt Bakı və digər böyük şəhərlərdə maddi-texniki infrastruktur qənaətbəxş səviyyədə olsa da, bəzi regionlarda nəqliyyat xidmətlərinin zəif inkişafı turizm potensialına çıxışda əsas maneə olaraq qalır.

# THE DEVOLOPMENT OF TRANSPORT SERVİCES İN THE TOURİSM SECTOR İN AZERBAİJAN

## SUMMARY

The development of transport services is important for increasing the tourism potential in Azerbaijan. The steps taken in this direction, especially the provision of a sound material and technical base and the establishment of infrastructure, play an important role in the overall development of tourism. Transport services in tourism contribute to economic development, ensure the accessibility of tourism centers, create safety and comfort. Taking into account the development prospects, if the attention and investments allocated to this area are further increased, Azerbaijan can use its tourism potential more.

The first chapter examines, the existing problems in transport services in the tourism sector in Azerbaijan - uneven development of transport infrastructure across regions, limited railway services, lack of creation of a unified transport system for tourists, lack of control over taxi services, non-compliance of transport with environmental requirements - hinder the development of tourism. The application of international experience is important for the development of transport services in tourism. Models applied in the world's advanced tourism countries and the integration of these models into Azerbaijani tourism can be useful for increasing transport services.

The second chapter discusses, the analysis methods used in the research methodology allow for a more in-depth study of the topic. In particular, the results obtained from the SWOT analysis and regression analysis play the role of a kind of strategic roadmap for taking the necessary steps in the tourism sector. Statistical data received from the Statistics Committee and their visualization in graphic form

facilitate the understanding of the current state of the tourism sector.

The third chapter discusses the development prospects of transport services in tourism in Azerbaijan, the current problems in the development of transport services and their solutions, and the application of international experience in the development of transport services in Azerbaijan.

In general, the research results show that tourism, as one of the important parts of the Azerbaijani economy, has been supported by state programs in recent years, and financial and human resources are directed in this direction. The quality of transport services in Azerbaijan seriously affects the travel experience of local and foreign tourists. Although the material and technical infrastructure in the capital of our country, Baku, and other large cities is good, the poor development of transport services in some cities, especially in the regions, is an obstacle to reaching the tourism potential.